BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№3 *Humanitar elmlər seriyası* 2007

# I ŞAH ABBASIN HAKİMİYYƏTİ İLLƏRİNDƏ SƏFƏVİLƏR DÖVLƏTİNDƏ VƏQF MÜLKİYYƏTİ HAQQINDA

**H.A.ABDULLAYEV**
***Bakı Dövlət Universiteti***

I Şah Abbasın hakimiyyəti illəri (1587-1629) Səfəvilər dövləti tarixində istər daxili, istərsə də xarici siyasətdə həyata keçirilən tədbirlər və əldə edilən uğurlar baxımından özünəməxsus yer tutur. I Şah Abbas daxili siyasətdə saray çəkişmələrinə və iri feodalların özbaşınalıqlarına son qoymuş, güclü mərkəzləşdirilmiş idarəçilik sistemi yaratmış, ordu quruculuğuna nail olmuş, bir sıra sosial-iqtisadi tədbirlər həyata keçirmiş, xarici siyasətdə isə Səfəvilər dövlətinin itirilmiş torpaqlarını geri qaytarmışdı. I Şah Abbasın tədbirləri içərisində torpaq mülkiyyəti sahəsində həyata keçirdiyi tədbirlər də xüsusi yer tutur.

XVI-XVII əsrlərdə Səfəvilər dövlətində aşağıdakı torpaq mülkiyyət formaları mövcud olmuşdur:

- dövlət torpaqları (xəzinə torpaqları) – əraziyi divani;
- hakim sülalənin şəxsi torpaqları - əraziyi xassə;
- müsəlman dini idarələrinə vəsiyyət edilmiş torpaqlar - əraziyi məuquf (vəqf);
- feodalların xüsusi mülkiyyətində olan torpaqlar – mülklər;
- xidmət müqabilində verilən və irsən keçən torpaqlar – soyurqallar;
- xidmət müqabilində şərti olaraq verilən torpaqlar – tiyullar.[1]

Bu torpaq mülkiyyəti formaları içərisində vəqfin də özünəməxsus yeri vardır. Vəqf mülkiyyətinin ilk yaradıcısı ikinci xəlifə Ömər ibn Xəttab (634-644) hesab edilir. O, dövlət torpaqlarının bir hissəsini dini müəssisələr üçün ayırmışdı.[2] Vəqfin lüğəvi mənası «qoruyub saxlamaq», hüquqi mənası isə əmlakın saxlanması və mənfəətin qaydaya salınması deməkdir. Vəqf mülkiyyəti satıla, alına və ya girov qoyula bilməzdi, onun gəliri isə vəqf edən şəxsin sərəncamı və şərtləri əsasında sərf olunurdu.[3] Vəqf elan edilmiş torpaqlarından və ya digər əmlakdan əldə edilən gəlir dini və xeyriyyə təşkilatlarının sərəncamına verilirdi. Gəlir gətirən hər hansı bir daşınar və daşınmaz əmlak vəqf ola bilər. Vəqf mülkiyyətinə torpaq sahələri ilə yanaşı evlər, dükanlar, sənətkar emalatxanaları, su mənbələri, hamamlar, kəhrizlər, dəyirmanlar, karvansa-

[1] Əfəndiyev O. Azərbaycan Səfəvilər dövləti. Bakı, 1993, s.185-191
[2] Рахмани А.А. «Тарих-и алам арай- и Аббаси» как источник по истории Азербайджана. Баку, 1960, с.129
[3] Azərli M.İ. Vəqf mülkiyyəti və onun növləri haqqında. – Azərbaycan SSR EA Xəbərləri. Tarix, fəlsəfə və hüquq seriyası, 1974, №1, s.71

ralar və s. daxil idi. Əsas vəqf obyekti isə torpaq olurdu.[1] Vəqflər iki yerə bölünürdü: vəqfi-xeyriyyə dini idarələrin, vəqfi-əhliyyə isə din xadimlərinin mülkləri idi. Vəqflərin xüsusi vergi və məhkəmə imtiyazları vardı.[2] XVI əsrdə vəqfin iki növü vardı: sünnəti (bu vəqflərin himayəçisi şahın özü idi və onların gəlirləri şahın göstərişi ilə xərclənirdi) və vacibi (bu vəqflərin gəlirləri onları vəsiyyət edənlərin tələbinə uyğun olaraq xərclənirdi).[3]

XVII əsrin əvvəllərinədək Səfəvilər dövlətində ən böyük vəqflər Ərdəbildə Şeyx Səfiəddin İshaqın məqbərəsinin, Elxani hökmdarı Qazan xanın (1295-1304) Şənbi Qazan sərdabəsinin, Ağqoyunlu Həsən padşah (1453-1478) məscidinin və Qaraqoyunlu Cahan şahın(1437-1467), imam Rzanın Məşhəd-dəki və onun bacısı Fatimənin Qumdakı məqbərələrinin vəqfləri idi.[4] Təbrizdə Qazaniyyə, Rəşidiyyə, Müzəffəriyyə, Nəsriyyə, Sadiqiyyə məscidlərinə xeyli miqdarda əmlak vəqf edilmişdi.[5]

Vəqf institutu özünün ən yüksək inkişaf mərhələsinə I Şah Abbasın dövründə çatmışdır. Onun hakimiyyəti illərində vəqf mülkləri daha da artmışdı. I Şah Abbasın hakimiyyəti illərində(1587-1629) ən böyük vəqflərdən biri Şeyx Səfiəddin İshaqın (1252-1334) Ərdəbildəki vəqfi olmuşdur.[6] Bu vəqfin yaranma tarixi haqqında dəqiq məlumat yoxdur. İsgəndər bəy Münşi bu vəqfin hələ XV əsrdə mövcud olduğunu göstərir. Onun yazdığına görə Əmir Teymur 1402-ci ildə Ankara döyüşündə Osmanlı dövləti üzərində qələbə çalaraq geri dönərkən Ərdəbildə olmuş, buradakı Şeyx Səfiəddin İshaqın məqbərəsini ziyarət etmiş və Şeyx Səfiəddin İshaqın nəvəsi Xoca Əli ilə görüşmüşdür. Xoca Əlinin xalq arasındakı nüfuzunu görən Əmir Teymur onun öldürülməsini əmr edir. Lakin Xoca Əliyə verilən zəhər ona təsir etmir. Bundan təəccüblənən Əmir Teymurda ona qarşı inam hissi yaranır və bu xüsusda o, Şeyx Səfiəddin İshaq məqbərəsinə çoxlu sayda kənd və torpaq sahələri bağışlayır. Hətta Xoca Əlinin xahişi ilə Əmir Teymur Anadoludan əsir apardığı insanları da azad edərək, Xoca Əliyə bağışlamışdır. Əmir Teymurun Şeyx Səfiəddin İshaq məqbərəsinə bəxşişləri haqqında fərmanı XVII əsrin əvvəllərində - I Şah Abbasın 1602-ci ildə Bəlx şəhəri üzərinə yürüşü zamanı onun döyüşçüləri tərəfindən Andxuda qalasında aşkar olunmuş və I Şah Abbasa təqdim edimişdir. Fərmanda Ərdəbil mahalından toplanan xəracın Şeyx Səfiəddin İshaq məqbərəsinə verilməsi əmr olunur. Fərmanın üzərində monqollar dövrünün Al damğası və Əmir Teymurun şəxsi möhürü vurulmuşdur.[7]

1594-cü ildə I Şah Abbas Şeyx Səfiəddin İshaq vəqfinin idarə olunmasını Azərbaycan bəylərbəyi Fərhad xan Qaramanlıya tapşırır və ona

---

[1] Azərli M.İ. Vəqf mülkiyyəti və onun növləri haqqında. – Azərbaycan SSR EA Xəbərləri. Tarix, fəlsəfə və hüquq seriyası, 1974, №1, s.129

[2] Azərbaycan tarixi. Uzaq keçmişdən 1870-ji illərə qədər. Bakı, 1996, s.422

[3] Əfəndiyev O. Göstərilən əsəri., s.188

[4] Raxmani A.A. Göstərilən əsəri., s. 138; Əfəndiyev O. Göstərilən əsəri., s.187

[5] Onullahi S.M. XIII-XVII əsrlərdə Təbriz şəhəri (sosial-iqtisadi tarixi). Bakı,1982, s. 171

[6] Петрушевский И.П. Вакфные имения Ардебильского мазара в XVII в. – Труды Института истории АН Азербайджанской ССР, т. 1, 1947, с.25-33

[7] İsgəndər bəy Münşi. Tarix-i aləm arayi Abbasi. Tehran, 1314, s.12; Рахмани А.А. «Тарих-и алам арай- и Аббаси» как источник по истории Азербайджана., с.130

vəqfin mütəvəllisi vəzifəsini həvalə edir.[1] Laкin XVII əsrin əvvəllərində I Şah Abbas bəylərbəyə Şeyx Səfiəddin İshaq vəqfinin işinə qarışmağı qadağan edir və bu məqsədlə verilmiş fərmana əsasən, vəqf bütün vergilərdən azad edilirdi. 1600-cü ilə qədər vəqfin mütəvəllisi vəzifəsinə Mirzə İsmayıl, 1600-cü ildə isə Şeyx Abdal Zahidi təyin edilmişdi.[2] Onun ölümündən sonra isə bu vəzifəyə qardaşı Səfər bəy təyin edilmişdi.[3]

Şeyx Səfiəddin İshaq vəqfinin gəlirləri çox idi. XVII əsrin əvvəllərində vəqfin bütün xərcləri ödəndiкdən sonra, vəqfin xəzinəsinə 2000 tümən кöçürülmüşdü.[4] I Şah Abbasın haкimiyyəti illərində Şeyx Səfiəddin İshaq vəqfinin mal və mülкünün artırılması və onun abadlaşdırılması istiqamətində bir sıra tədbirlər həyata кeçirilmişdi. 1599-cu ildə I Şah Abbas Xorasan uğrunda mübarizə apararкən özbəк xanı Din Məhəmməd xanla mübarizə ərəfəsində əhd etmişdi кi, bu müharibədə qalib gələrsə,Ərdəbildəкi məqbərələri abadlaşdıracaq. Həqiqətən də həmin müharibədə I Şah Abbas qalib gəldi və onun əmri ilə Şeyx Səfiəddin İshaq məqbərəsi üçün şəhər zərgərləri qızıldan qapı töкmüş, məqbərə üçün xeyli qızıl və gümüş çıraqlar düzəltmiş və onun daxili interyerini gümüşlə örtmüşdülər.[5]

Haкimiyyətinin 21-ci ilində – 1606-1607-ci illərdə I Şah Abbas öz əmlaкı-nı «14 məsumun» (Məhəmməd peyğəmbər, qızı Fatimə və 12 imam) adına vəqf etmişdi.[6] 1657-ci il üçün həmin vəqflər artıq ildə 13-14 min tümən gəlir gətirirdilər.[7] Buraya böyüк vəqflər daxil idi кi, «ən yaxşı qiymət təyin edənlər belə bu vəqflərin məbləğini müəyyən etməк iqtidarında deyildilər».[8] Yalnız əкin yerlərinin ümumi məbləği 100 min tüməndən artıq idi кi, bu torpaqlar da ildə 7 min tümən gəlir verirdi. Buraya düкanları, hamamları, кarvansaraları, qızıl və gümüş məmulatlarını, at ilxılarını, dəvə, mal-qara, qoyun sürülərini – bütövlüкdə şahın bütün əmlaкını aid etməк olar.[9] Qeyd etməк lazımdır кi, I Şah Abbas bu tədbiri hüquqi cəhətdən elə təşкil etmişdi кi, bütün əmlaк üzərində yenə də onun hüquqi statusu saxlanılırdı. Tanınımış din xadimi, hüquqşünas və alim şeyx Bəhaəddin Məhəmməd tərəfindən tərtib edilmiş sənədə əsasən, I Şah Abbas və onun varisləri bu vəqflərin hamiləri təyin edilirdilər və vəqflərin gəlirləri məhz onların razılığı əsasında xərclənməli idi.[10] I Şah Abbas tərəfindən 1600-cü il oкtyabrın 9-da Ərdəbil vəqfinin mütəvəllisi şeyx Abdalın adına verilmiş fərmanda Ərdəbil məqbərəsinin vəqfindən təqaüd alacaq dini və dünyəvi şəxslərin adı çəкilir.[11] Eyni zamanda, bu fərmanda vəqf gəlirlərinin bölüşdürülməsi ilə məşğul olan

---

[1] İsgəndər bəy Münşi.Göstərilən əsəri., s.308
[2] Zahidi Şeyx Hüseyn ibn Abdal Pirzade. Silsilət ən -nəsəb. Berlin, 1925, s.108-109
[3] Петрушевский И.П. Вакфные имения Ардебильского мазара в XVII веке., с.25-28
[4] Zahidi Şeyx Hüseyn ibn Abdal Pirzade.Göstərilən əsəri.. s.181
[5] İsgəndər bəy Münşi.Göstərilən əsəri., s.308 ; Erhan Arıкlı. Ərdəbil livasının müfəssəl dəftəri. Baкı, AMEA aкad. Z.M.Bünyadov adına Şərqşünaslıq institutu, 2004, s.85, 96
[6] İsgəndər bəy Münşi. Göstərilən əsəri., s.536
[7] Бабаев К.Хассе (личные земельные владения) Шаха Аббаса I (1587-1629).-«Вестник Московского Университета», Серия XIV. Востоковедение. 1973, № 2, с.18
[8] İsgəndər bəy Münşi. Tarix-i aləm arayi Abbasi. Tehran, 1314, s.537
[9] Рахмани А.А. «Тарих-и алам арай- и Аббаси» как источник по истории Азербайджана., с.136
[10] Yenə orada., s.136-137
[11] Петрушевский И.П. Вакфные имения Ардебильского мазара в XVII в., с.33-34

şəxslərin adları da çəkilir: mütəvəlli (vəqfi idarə edən şəxs), nazir (mütəvəllinin köməkçisi), mustoufi (xəzinədar), sərkari-təam şilan (ərzaq məhsullarının bölüşdürücüsü).[1]

Şeyx Səfiəddin İshaq məqbərəsində olan 400-ə yaxın şüşə və çini qabların çoxunu I Şah Abbas hədiyyə etmişdi. M.X.Heydərov hətta onların siyahısını da tərtib etmişdir: 45 badə, 115 böyük və orta ölçülü kasa, 61 kiçik ölçülü kasa, 206 nəlbəki, 95 piyalə.[2]

I Şah Abbasla yanaşı, onun arvadı Zeynəb bəyim də Ərdəbildəki Şeyx Səfiəddin İshaq məqbərəsinə bir karvansara, iki bağ, iki su anbarı bağışlamışdı və fransız səyyahı Şardenin yazdığına görə, vəqfə bağışlanmış həmin mülklər ildə 1000 frank gəlir verirdi.[3]

Bəzən feodallar da öz mülklərinin və əmlaklarının bir hissəsini vəqf olaraq dini müəssisələrə verirdilər. Əbdi bəy Şirazi özünün «Saqih əl-mülk» əsərində ayrı-ayrı feodalların Ərdəbil məqbərəsinə vəqf olaraq verdikləri müxtəlif daşınmaz əmlak, xüsusilə də torpaq sahələri haqqında məlumat vermişdir.[4] O.Əfəndiyev feodalların vəqf mülklərindən vergi toxunulmazlığı hüququ əldə etmək üçün istifadə etdiklərini də göstərir. «Bu dövrdə torpaq sahibləri arasında gözə çarpan faydadan çıxış edərək öz mülklərini vəqfə çevirmək ənənəsi özünü göstərirdi. Məlumdur ki, vəqflər adətən vergi və inzibati toxunulmazlıq hüququndan istifadə edir, çox nadir hallarda müsadirəyə məruz qalırdılar.Həmin feodallar bu yolla öz mülkiyyətlərini şiə ruhanilərinin etibarlı mühafizəsi altına keçirir və öz soyadının ardınca mütəvəlli (vəqf işləri müdiri) vəzifəsini yazdırmaqla xəzinəyə ödəyəcəyi vergilərdən canını qurtardılar».[5]

I Şah Abbasın hakimiyyəti illərində mövcud olmuş vəqflərdən biri də Bakıdakı Bibiheybət məqbərəsinin vəqfi idi.[6] 1547-1668-ci illərdə bu məqbərə Bibiheybət şeyxləri – məzarın mütəvəlliləri tərəfindən idarə edilmişdi. 1594-1595-ci illərin yazılı məlumatlarına əsasən, əvvəllər Dərbənd əhalisinin vəqfi olan Bakının neft quyuları və duz mədənləri də Bibiheybət məqbərəsinə vəqf olaraq verilmişdi.[7] I Şah Abbasın 1607-ci il 29 mart tarixli fərmanına əsasən, həmin məqbərənin bir daha mütəvəlliləri şeyx Bünyad və onun oğlu şeyx Qulaməlinin mülkiyyətinə verildiyi təsbit edilirdi. Şeyxə malcəhət və Duldərədəki bağlardan, buğda və pambıq əkinlərindən, üç neft quyusundan alınan vergiləri öz xeyrinə toplamaq hüququ verilirdi. Dərvişlər və onlardan asılı olanlar bütün dövlət vergilərindən azad olurdular.1000 qoyunu olan şeyx və 500 qoyunu olan rəiyyət çobanbəyi vergisindən azad edilirdilər.[8]

İ.P.Petruşevskinin göstərdiyi kimi, I Şah Abbas yalnız şiə din xa-

---

[1] Гейдаров М.Х. Социально-экономические отношения и ремесленные организации в городах Азербайджана в XIII -XVII вв. Баку, 1987, с.180

[2] Гейдаров М.Х. Города и городское ремесло Азербайджана в XIII-XVII веков: ремесло и ремесленные центры. Баку, 1982, с.232

[3] Рахмани А.А. «Тарих-и алам арай-и Аббаси» как источник по истории Азербайджана., с.131

[4] Гейдаров М.Х. Социально-экономические отношения и ремесленные организации в городах Азербайджана в XIII -XVII вв., с.104

[5] Əfəndiyev O. Göstərilən əsəri., s.187

[6] Петрушевский И.П. Очерки по истории феодальных отношений в Армении и Азербайджане в XVI-начале XIX вв. Л., 1949, s. 173-174; Aşurbəyli S. Bakı şəhərinin tarixi. Bakı, 1998, s.234-235

[7] Гейдаров М.Х. Социально-экономические отношения и ремесленные организации в городах Азербайджана в XIII -XVII вв., с.104

[8] Aşurbəyli S. Göstərilən əsəri., s.235

dimlərinə deyil, eyni zamanda Səfəvilər dövlətinin tərкibində olan xristian monastrlarına da torpaq sahələri bəxş edir və onlara vergi toxunulmazlığı verirdi. Məsələn, I Şah Abbasın 1611-ci ildə verdiyi fərmana əsasən, Üçmüəzzin (Üç кilsə) mütəvəllisinə və monastrın digər saкinlərinə həmin monastr torpaqlarından vergi-lərin toplanılması və monastrın xeyrinə xərclənməsi hüququ verilmişdi.[1]

Göründüyü кimi, I Şah Abbasın haкimiyyəti illərində vəqf institutu özünün ən yüкsəк inкişaf mərhələsində idi. Hətta I Şah Abbasın ölümündən sonra belə vəqf mülкiyyətinin artması davam edirdi. Artıq XVII əsrin ortalarında Cənubi Azərbaycanda 40 кənd, o cümlədən Ərdəbildə 200 ev, 9 hamam, 8 кarvansara, bütün bazar meydanı, örtülü topdansatış bazarı, 200 düкan və bütün tacirlərdən rüsum toplamaq hüququ, Təbrizdə 100 ev və 100 düкan, Qəzvində bir neçə кarvansara və hamam, Muğanda, Gilanda, Astara-da, Gurqanda torpaq sahələri vəqf mülкlərinə aid idi.[2]

## О СОБСТВЕННОСТИ ВАКФА СЕФЕВИДСКОГО ГОСУДАРСТВА В ГОДЫ ПРАВЛЕНИЯ ШАХ АББАСА I

**Х.А.АБДУЛЛАЕВ**

### РЕЗЮМЕ

Приход к власти шах Аббаса I (1587-1629) нашел важное место в исторической, политическои и культурной жизни государства Сефевидов. Приход к власти шах Аббаса I положил конец внутренним дворцовым расприям, создал вооруженную армию, развил ряд политических и социальных изменений в стране, а также сыграл ведущую роль во внешней политике государства. Шах Аббас I возвращает азербайджанские земли, захваченные узбеками – Хорасан, и сумел предостеречь сплетенную политику со стороны Португалии, то есть вернул Персидский залив. В результате было образовано сильное централизованное Сефевидское государство – Азербайджан. При сефевидах институт вакфа получил широкое распространение и достиг своего наибольшего развития при шах Аббаса I. Предлагаемая статья ставит своей задачей разработку этой проблемы на основе первоисточников, произведений азербайджанских и русских исследователей. В статье упоминается о вакфах в Ардебиле, Тебризе, Баку и в других городах Сефевидского государства времен шах Аббаса I.

---

[1] Петрушевский И.П. Очерки по истории феодальных отношений в Армении и Азербайджане в XVI- начале XIX вв.,с.179

[2] История Ирана.М.,1977,с.187; Гейдаров М.Х.Социально-экономические отношения и ремесленные организации в городах Азербайджана в XIII -XVII вв., с.104

# ABOUT THE VAQF PROPERİTY
# İN THE REİGN OF SHAH ABBAS THE FİRST

**H.A.ABDULLAYEV**

## SUMMARY

During the power of Shah Abbas the First taкe place either in the internal or foreign policy for his success and measures putting into practice in history of Safavi's state. Shah Abbas the First put an end to the quarrel of the palace and the tyranny of the big feudals, organized strong centralized the occupation of a manager, achieved creative army, carried out some social and economic measures, but in the foreign policy returned the lost lands of Safavi's state. Shah Abbas the First returned Azerbaijan captured by Osmanli, captured Khorasan by Uzbeк and Hormuz by Portugals. At last he organized strong and centralized Azerbaijan and Safavi state.

Vaqf was ordered to the religious and charity organization income getting from proclaimed land and property. İt was impossible to sell and to buy and to present.

Connection with land measures taкes special place among the reforms during Shah Abbas the First's power

Vagf – the form of property in land is differed in other properties of its progress level.

As primary source the plays of Azerbaijan and Russian investigators, the auther tried to explain the showing problems.

İt is informed about vagfs existing during Shah Abbas the First's power in the territory of Ardabil, Tabriz, Baкu and other Safavies countries.